# Azərbaycanın maliyyə ehtiyatları real vəziyyətdən çıxmağa kifayət edir

**Yanvarın 20-dən 23-dək davam edən Davos İqtisadi Forumu başa çatdı. Forumun bu ilki tədbirləri dünyada baş verən proseslərin fonunda beynəlxalq ictimaiyyətin diqqət mərkəzində oldu. Xüsusilə dünya bazarında neftin ucuzlaşması və bundan irəli gələn bir sıra iqtisadi proseslər, dünyada baş verən iqtisadi və maliyyə böhranları budəfəki Forumun gündəliyində olan əsas müzakirə mövzuları kimi yadda qaldı.**







1971-ci ildən etibarən ardıcıl olaraq hər il İsveçrənin Davos şəhərində keçirilən Forum dünyanın ən nüfuzlu iqtisadi tədbirlərindən biridir. Müstəqilliyini qazandıqdan sonra Azərbaycan da bu Forumun iştirakçılarından birinə çevrilib. Ölkəmizdə son illərdə sürətlə gedən iqtisadi inkişaf Azərbaycanı Davos Forumunun diqqət mərkəzində olan ölkələrdən birinə çevirib. Sonuncu tədbirdə də Azərbaycan Prezidenti cənab İlham Əliyevin müzakirələrin əsas iştirakçılarından biri olması və bütün iştirakçıların Azərbaycan rəhbərinin fikirlərinə xüsusi diqqətlə yanaşması da deyilənləri təsdiq edir.

### Prezident İlham Əliyev Forumun diqqət mərkəzində

Qeyd edək ki, bu Forumda Azərbaycanın iqtisadi potensialı müzakirələrin mərkəzində yer aldı. Bunun bir səbəbi neftin ucuzlaşması ilə bağlı bir neft ölkəsi kimi Azərbaycanda gedən son proseslər idisə, digər səbəbi də Prezident İlham Əliyevin aparılan müzakirələrdə fəal iştirak etməsi, praqmatik və açıq fikirləri ilə diqqəti cəlb etməsi idi.

Dövlətimizin başçısının iştirak etdiyi konfrans və panellərdə Azərbaycanın iqtisadi durumu ilə yanaşı, dünya iqtisadiyyatında cərəyan edən proseslərə də praqmatik münasibəti iştirakçıların marağına səbəb olmuşdur.

Qeyd edək ki, Azərbaycan Prezidentinin Forumun rəsmi saytında yerləşdirilən "Azərbaycan iqtisadiyyatının gələcəyi" mövzusundakı məqaləsi ölkəmizin gələcək iqtisadi inkişafının konturlarını ehtiva edən proqram kimi qiymətləndirilir. Dünya bazarında neftin kəskin ucuzlaşmasından sonra neft ixracatçısı kimi Azərbaycanın bundan sonrakı addımları Forum iştirakçılarını düşündürən suallardan olmuşdur. Lakin həm Prezidentin sözügedən məqaləsi, həm də panellərdəki çıxışları iştirakçılarda ölkəmizin gələcək iqtisadi inkişafı haqqında tam təəssürat yaratmaqla yanaşı, Azərbaycan iqtisadiyyatının tamamilə neftdən asılı olması kimi yanlış düşüncələri də alt-üst etdi.

Prezident İlham Əliyev adı çəkilən məqaləsində Azərbaycan iqtisadiyyatının ümumi mənzərəsini və göstəricilərini qeyd edərək vurğulamışdır ki, Azərbaycan bütün istiqamətlərdə, o cümlədən iqtisadi sahədə dinamik inkişafını müvəffəqiyyətlə davam etdirən tolerant bir ölkədir. Son vaxtlar neftin qiymətinin kəskin şəkildə aşağı düşməsinə baxmayaraq, ölkə iqtisadiyyatı özünün inkişaf templərini davam etdirməkdədir: "Azərbaycan iqtisadiyyatı son 10 ildə 300 faiz artmışdır. Yoxsulluq və işsizlik kəskin şəkildə aşağı düşmüşdür. Hazırda hər iki göstərici 5 faiz səviyyəsindədir. 2015-ci ildə qeyri-neft sənayesi 8.4 faiz artmışdır.

Dünyadakı siyasi, hərbi və maliyyə böhranının dərinləşməsi şəraitində iqtisadi inkişafı saxlamaq, əlbəttə ki, böyük nailiyyətdir".

Dövlətimizin başçısı yaranmış vəziyyətdən çıxış yollarını göstərərək qeyd etmişdir ki, indiki vəziyyətdə Azərbaycanın qarşısında duran əsas vəzifə makroiqtisadi sabitliyi təmin etmək, inflyasiyanı normal səviyyədə saxlamaqdır. 2015-ci ilin yekunlarına görə, inflyasiya 4 faizdən az olmuşdur. Azərbaycanda yerli istehsala böyük əhəmiyyət verildiyi, həm dövlət, həm də özəl sektora investisiyaların qoyulması, ölkədə biznes mühitinin daha da yaxşılaşdırılması məsələləri geniş şərh edilmişdir.

Cənab Prezident yaranmış vəziyyətdən optimal çıxış yolunun qeyri-neft sektorunun inkişaf etdirilməsində olduğunu göstərməklə bərabər, son illərdə Azərbaycanda bu istiqamətdə aparılan işlərin nəticəsində ümumi daxili məhsulun (ÜDM) 70 faizinin qeyri-neft sahəsinə aid olduğunu vurğulamışdır.

Davos Forumunda Azərbaycan Prezidentinin neftin qiymətinin ucuzlaşması və gələcək vəziyyəti haqqında səsləndirdiyi fikirlər dünya mediasının Forumla bağlı xəbərləri içərisində mühüm yer tutur və ən çox müzakirələrə səbəb olmuşdur. Dövlətimizin başçısı Davos Forumu çərçivəsində "The New Energy Equation" adlı panel müzakirəsində çıxışı zamanı neftin ucuzlaşmasının siyasi amillərlə bağlı olduğunu açıq bildirərək bunu dünyada gedən son proseslərlə əlaqələndirmişdir: "Bugünkü vəziyyəti gördükdən sonra neftin qiymətinin daha da düşməsi bizi təəccübləndirməyəcək".

Dövlətimizin başçısı onu da nəzərə çatdırmışdır ki, Azərbaycan iqtisadiyyatı real vəziyyətdən çox böyük təsirlər hiss edir. Lakin bütün bu çətinliklərə baxmayaraq, Azərbaycanın maliyyə ehtiyatları real vəziyyətdən çıxmağa kifayət edir.

### Forum Azərbaycan iqtisadiyyatının gələcəyi üçün nə vəd edir?

Davos İqtisadi Forumunda Azərbaycan iqtisadiyyatının gələcək inkişafı barədə Prezident İlham Əliyevin səsləndirdiyi fikirlər ölkəmizin dayanıqlı inkişafının təmin edildiyini təsdiq edir. Bu Forum Azərbaycana yeni xarici investisiyaların cəlb edilməsi baxımından da yüksək qiymətləndirilir. Ekspertlər hesab edirlər ki, Azərbaycan Prezidentinin Forumda keçirdiyi ikitərəfli görüşlər və tədbir çərçivəsində iştirak etdiyi müzakirələrdə ölkəmizin iqtisadi potensialı barədə dolğun və etibarlı fikir formalaşdırması Azərbaycanın qeyri-neft sektoruna investisiyaların cəlb edilməsi baxımından əhəmiyyətli olacaqdır.

Milli Məclisin deputatı Aydın Mirzəzadə hesab edir ki, Prezident İlham Əliyevin Davos İqtisadi Forumunda iştirakı Azərbaycanın beynəlxalq aləmdə və regiondakı iqtisadi münasibətlərdə fəal oyunçu olduğunu göstərir: "Cənab Prezidentin geniş, əhatəli görüşləri, panel iclasında çıxışı onun dünya ilə bağlı Azərbaycanın prinsipial mövqeyini ortaya qoyduğunu və milli maraqlarımızı müdafiə mövqeyindən çıxış etdiyini göstərdi. Bu da auditoriya tərəfindən çox maraqla qarşılandı".

A.Mirzəzadə Forumun Azərbaycan üçün əhəmiyyətindən danışaraq bildirib ki, birincisi, biz dünyanın bir hissəsiyik. Dünya üçün xarakterik olan uğurlar və çətinliklər Azərbaycan üçün də var. Azərbaycan bu situasiyada özünün maraqlarını həmişə çox yüksək səviyyədə qoruyur: "Eyni zamanda Azərbaycan hökuməti dünyanın böyük şirkətlərinin marağını daim Azərbaycana cəlb etməyə çalışır və bu istiqamətdə uğurlar əldə edib. Həmçinin bu gün Azərbaycan özü artıq dünya əmək bölgüsündə fəal iştirak edir, dünyaya təkcə neft yox, qeyri-neft ölkəsi kimi də çıxır. Ona görə də bu görüşlərin və münasibətlərin iqtisadi problemlərin həllində, ümumən region və dünya üçün uğur gətirəcək həll yollarının tapılmasında Azərbaycanın böyük marağı var".

İqtisadçı ekspert Nazim Məmmədovun sözlərinə görə, builki Davos Forumu xarici investisiyaların ölkəyə cəlb edilməsi baxımından Azərbaycan üçün çox böyük əhəmiyyət daşıyır. Ekspert bildirir ki, bunun üçün xarici investorları Azərbaycanın etibarlı ölkə olduğuna inandırmaq lazım idi: "Ölkə başçısı Dünya Bankının rəqabətlilik indeksində Azərbaycanın MDB məkanında birinci olduğunu nəzərə çatdırıb. Bu o deməkdir ki, Azərbaycan investisiya baxımından qeyri-neft sektoru üçün maraqlı ölkədir. Ona görə də Prezident İlham Əliyev həm qeyri-neft sektorunun inkişafı baxımından, həm neftin qiymətinin bir neçə dəfə aşağı düşməsi nəticəsində Azərbaycanın gəlirlərinin azalmasının müvəqqəti olduğunu vurğulamaqla, bizim ölkəyə yenidən etibar olunmasını qeyri-neft sektoru şirkətlərinə mesaj olaraq çatdırmışdı".

Cənab Prezident, eyni zamanda, 2016-cı ildə Azərbaycanda struktur islahatlarının aparılacağını, sahibkarlığın, özəl sektorun inkişafının dövlət tərəfindən təşviq ediləcəyini də xüsusi qeyd edib. Təbii ki, bütün bunlar ölkəmizdə investisiya qoyuluşunun artacağını, beləliklə, Azərbaycan iqtisadiyyatının çoxşaxəli inkişafının daha da sürətlənəcəyini söyləməyə əsas verir.

Bu baxımdan Davos İqtisadi Forumunda dünyaya yeni dəyərlərə sahib, yeni imkanlar məkanı kimi inkişaf etməkdə olan bir Azərbaycan təqdim edildi. Ölkəmizin iqtisadi inkişafının yalnız neft amilindən asılı olması barədə təəssüratların yanlış olduğu bir daha isbatlandı. Azərbaycan çoxşaxəli iqtisadi inkişafı ilə regionda mühüm güc mərkəzlərindən biri olduğunu təsdiqlədi. Forumda iştirak edən beynəlxalq şirkətlərin təmsilçilərinin və böyük maliyyə korporasiyalarının nümayəndələrinin Azərbaycan Prezidenti ilə görüşləri zamanı əməkdaşlıqda maraqlı olduqlarını ifadə etmələri ölkəmizin xarici investorlar üçün cəlbedici olduğunu təsdiq edir.

**Taleh Turqut,**
***"İki sahil"***